# MAKEYEV İQOR VLADİMİROVİÇ



Makeyev İqor Vladimiroviç 27 oktyabr 1971-ci ildə Gəncə şəhərində fəhlə ailəsində doğulmuşdur. 1979-cu ildə Mir Cəlal adına Kəpəz rayon 39 saylı orta məktəbinin birinci sinfinə getmiş, 1987-ci ildə həmin məktəbin səkkizinci sinfini bitirmişdir. 1987-1990-cı illərdə 8 saylı texniki-peşə məktəbində avtomobil çilingəri peşəsinə yiyələnmişdir. 1990-cı il noyabrın 26-da Kəpəz Rayon Hərbi Komissarlığından hərbi xidmətə göndərilmişdir. İqor Bakıda desant qoşunları hissəsində xidmət keçirdi. Sonra onu Rusiyanın Rostov vilayətinə göndərirlər. Burada 6 ay çavuş məktəbində təhsil alır. Azərbaycanda baş verən hadisələr İqoru bərk narahat edirdi. İqor hərbi xidmətini yarımçıq qoyub Gəncəyə qayıdır. o, heç kəsə bir söz demədən Bakıya gəlir və Daxili İşlər Nazirliyinin qoşun hissələrindən birinə yazılır. Elə həmin gündən də həyatını cəbhəyə bağlayır. Tez bir zamanda bütün silahlardan istifadə etməyi öyrənmişdi. Çox keçmədi ki, onu taqım komandirinin müavini vəzifəsinə təyin etdilər. 1992-ci il iyunun 5-i səhər saat 6-da erməni quldurları xeyli canlı qüvvə ilə Naxçıvanik kəndinə qəflətən hücuma keçmişdilər. Döyüş bir saata yaxın davam etdi. Həmin döyüşdə ermənilər kəndi aldılar. Lakin bu cəmi 3-4 saat çəkdi. Döyüşçülərimiz yenidən hücuma keçərək kəndi geri aldılar. Ağdam və Tərtər vuruşlarından sonra Ağdərə uğrunda gedən döyüşlərdə düşmənin geri oturdulması üçün çoxlu qüvvə lazım idi. Bu zaman Ağdamda yerləşən hərbi hissədən Ağdərə bölgəsinə köməyə bir dəstə göndərdilər. İqor da həmin dəstədə idi. Ağdərə uğrunda gedən döyüşlərdə İqor mərdliklə döyüşürdü. 2 avqust 1992-ci ildə "Vışka" yüksəkliyi alınmalı idi. Düşmən çox güclü idi. İqor "Nikulin" ləqəbli bir azərbaycanlı igidlə birlikdə pulemyotla ön cərgədə idi. O, 28 nəfərin mühasirədən çıxmasına kömək edərək onların həyatını xilas etdi. Lakin onun özü bu ağır döyüşdə İqor qəhrəmancasına həlak oldu. Gəncə şəhərinin Şəhidlər Xiyabanında dəfn edilmişdir. Subay idi. Azərbaycan Respublikası Prezidentinin 6 noyabr 1992-ci il tarixli 290 saylı fərmanı ilə Makeyev İqor Vladimiroviçə ölümündən sonra "Azərbaycanın Milli Qəhrəmanı" adı verilmişdir. Sadıllı qəsəbəsində adına küçə var.